Building a better working world



# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi




Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Dövlət satınalmaları haqqında yeni qanun
- Valyuta əməliyyatlarının aparılması qaydaları
- İnvestisiya təşviqi sənədinin sahibləri üçün güzəştlər
- Avtomobil nəqliyyatı ilə bağlı yeni qaydalar
- Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında yeni qanun

## Dövlət satınalmaları haqqında yeni qanun

*14 iyul 2023-cü il tarixində "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının yeni Qanunu qəbul edilib **("Qanun")**.*

Yeni Qanun müəyyən edir ki, məxfi məlumatlarla əlaqəli satınalmalar istisna olmaqla, satınalmalar yalnız dövlət satınalmalarının vahid internet portalı vasitəsi ilə həyata keçiriləcək.

Qanunda satınalmaların planlaşdırılması və mərhələləri, satınalma komissiyasının formalaşdırılması və onun məsuliyyəti, təchizatçıların uyğunluq göstəriciləri, təkliflərin qiymətləndirilməsi, satınalmaya dair hesabatın hazırlanması və satınalma müqaviləsinə dair digər tələblər, həmçinin satınalmanın ləğv edilməsinin əsasları öz əksini tapıb.

Yeni Qanuna əsasən, ehtimal olunan qiymət 100 000 manat və ondan çox olduqda, satınalmalar açıq tender və ya ikimərhələli tender metodları tətbiq edilməklə keçirilir. Ehtimal olunan qiymət 100 000 manatdan az olduqda, satınalmalar kotirovka sorğusu metodu tətbiq edilməklə keçirilə bilər. Kotirovka sorğusu yalnız mikro, kiçik və orta sahibkarlıq subyekti olan təchizatçılar arasında keçirilir.

Bundan əlavə, Qanun, müşahidə şurasının (direktorlar şurasının) tərkibi Azərbaycan Respublikası Prezidenti tərəfindən və ya onunla razılaşdırılmaqla təsdiq edilən dövlətə məxsus kommersiya hüquqi şəxslərinə münasibətdə belə hüquqi şəxslərin Qanunda müəyyən edilən vəsaitlər istisna olmaqla, digər vəsaitlərdən istifadə etməklə həyata keçirdikləri satınalmalara münasibətdə fərqli yanaşma müəyyən edir.

Bu Qanun 1 yanvar 2024-cü il tarixindən qüvvəyə minir.

## Valyuta əməliyyatlarının aparılması qaydaları

*26 iyul 2023-cü il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti, 28 noyabr 2016-cı il tarixli "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"nda dəyişikliklər edilməsi barədə 38/1 saylı Qərar qəbul etmişdir ("**Dəyişikliklər**").*

Dəyişikliyə əsasən, rezident və qeyri-rezident fiziki şəxs təqvim ayı ərzində 20 000 (iyirmi min) ABŞ dolları ekvivalentinədək xarici valyuta vəsaitlərini Azərbaycandan kənara köçürə bilər. Dəyişiklikdən əvvəl təqvim ayı üzrə limit 10,000 (on min) ABŞ dolları müəyyən olunmuşdu.

Həmçinin, bu Dəyişikliklər əsasında, Qaydalara pul vəsaitlərinin Azərbaycan Respublikasının hüdudlarından kənarda nağdlaşdırılması ilə bağlı yeni müddəa əlavə edilir. Belə ki, rezident fiziki şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının ərazisində emissiya olunmuş ödəniş kartları vasitəsilə təqvim ayı ərzində cəmi 10,000 (on min) ABŞ dolları ekvivalentinədək məbləğdə pul vəsaitini nağdlaşdıra bilər.

Bundan əlavə, Dəyişikliklərə əsasən, rezidentlər tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün Azərbaycan Respublikasının hüdudlarından kənarda xarici valyutada açılmış hesab barədə məlumat verilməsi qaydaları dəyişib. Bununa bağlı məlumatın, hesab üzrə əməliyyatlar aparıldığı tarixədək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş formada verilməsi kifayətdir. Bundan öncə isə, vergi orqanından bununla bağlı həmçinin şəhadətnamə-dublikatın alınması tələb olunurdu. Bu dəyişiklik 1 oktyabr 2023-cü il tarixindən qüvvəyə minir.

## İnvestisiya təşviqi sənədinin sahibləri üçün güzəştlər

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 iyul 2023-cü il tarixli 231 nömrəli Qərarı ilə "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı" ("**Siyahı**") təsdiq edilib.*

Ümumiyyətlə, investisiya təşviqi sənədi almış sahibkarlar, təsdiqedici sənəd əsasında müəyyən texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üzrə ƏDV və gömrük rüsumlarından 7 il müddətinə azad olunur.

Təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqeləri, məsələn qara və qiymətsiz metallardan məmulatlar və həmin mal mövqelərinin Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturası üzrə Kodları Siyahıda öz əksini tapıb.

## Avtomobil nəqliyyatı ilə bağlı yeni qaydalar

*14 iyul 2023-cü il tarixində "Avtomobil nəqliyyatı haqqında", "Lisenziya və icazələr haqqında" Azərbaycan Respublikası Qanunlarına və "İnzibati Xətalar Məcəlləsi"nə edilən dəyişikliklər ilə bağlı Qanunlar qəbul edilib ("**Dəyişikliklər**").*

“Avtomobil nəqliyyatı haqqında” Qanuna edilən dəyişikliklərə əsasən, avtomobil nəqliyyatı ilə ölkədaxili və ya beynəlxalq sərnişin və yük daşımaları ilə məşğul olmaq istəyən hüquqi şəxslər və fərdi sahibkarlar yalnız müvafiq icazələri aldıqdan sonra bu fəaliyyələr ilə məşğul ola biləcəklər.

Dəyişikliklərə əsasən, qanunvericiliklə tələb olunan sənədlərə malik olmayan daşıyıcıya və ya sürücüyə taksi operatorları tərəfindən taksi sifarişi xidmətinin göstərilməsi qadağan olunur.

Əlavə olaraq, İnzibati Xətalar Məcəlləsinə edilən Dəyişikliklərə görə, avtomobil nəqliyyatı qaydaları ilə bağlı aşağıdakı pozuntulara (siyahı tam deyil) görə inzibati cərimələr tətbiq ediləcək:

- icazə olmadan avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması;
- hazırlıq keçməmiş sürücülərin avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasına cəlb edilməsi;
- müvafiq icazə olmadan taksi sifarişi operatoru kimi fəaliyyət göstərmək;
- taksi sifarişi operatorları tərəfindən fərdi məlumatların qorunması ilə bağlı tələblərə əməl edilməməsi.

“Avtomobil nəqliyyatı haqqında” və “Lisenziya və icazələr haqqında” Qanunlara edilən Dəyişikliklər 1 oktyabr 2023-cü ildən, “İnzibati Xətalar Məcəlləsi”nə edilən Dəyişikliklər isə 1 yanvar 2024-cü il tarixindən qüvvəyə minir.

## Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında yeni qanun

*14 iyul 2023-ci il tarixində “Ödəniş sistemləri və ödəniş xidmətləri haqqında” Azərbaycan Respublikasının 987-VIQ nömrəli Qanunu qəbul edilib.*

Qanun zəruri terminlərin anlayışlarını, ödəniş təşkilatlarının, elektron pul təşkilatlarının və ödəniş sistemi operatorlarının fəaliyyətinin hüquqi əsaslarını, ödəniş və elektron pul təşkilatlarının nümayəndəlik və filiallarının açılması qaydalarını və bu sahədə tənzimləmə və nəzarətin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir.

Qanuna əsasən, ödəniş təşkilatı, elektron pul təşkilatı və operator (Mərkəzi Bank istisna olmaqla) ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində fəaliyyəti müvafiq lisenziyanı aldıqdan sonra həyata keçirə bilərlər.

Qanun həmçinin ödəniş təşkilatı və elektron pul təşkilatının minimum nizamnamə kapitalına və məcmu kapitalına dair tələblər müəyyən edir. Ödəniş təşkilatının və elektron pul təşkilatının minimum nizamnamə kapitalına və məcmu kapitalın minimum miqdarına dair tələblər, məcmu kapitalın hesablanması qaydası Mərkəzi Bankın normativ xarakterli aktları ilə müəyyən edilir.

Bu Qanun 9 avqust 2023-cü ildə dərc edilmişdir və dərc edildiyi tarixdən 3 (üç) ay sonra qüvvəyə minir.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



**Arzu Hacıyeva**
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



**Məmməd Balacanov**
Baş Menecer, Hüquq xidmətinin rəhbəri,
Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com

## EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilər, əməkdaşlar və bütövlükdə cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılmasına və kapital bazarlarına inamın artırılmasına töhfə verməklə daha yaxşı iş dünyasının qurulmasına çalışır.
EY şirkətinin çoxprofilli komandaları dünyanın 150-dən çox ölkəsində təmsil olunur. İnformasiya və texnologiyalardan istifadə edərək əməkdaşlarımız məlumatların doğruluğunu təsdiq etməklə etimadı təmin edir və müştərilərə fəaliyyətlərini uğurla inkişaf və transformasiya etdirməyə kömək edirlər.

EY şirkətinin audit, konsaltinq, hüquq, vergi, strategiya, və sövdələşmələr sahəsində mütəxəssisləri bu gün dünyamızın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

EY, Qafqaz və Mərkəzi Asiyadan olan şirkətlərlə əməkdaşlıq edir və onlara biznes məqsədlərinə çatmağa köməklik göstərir. Almatı, Astana, Atırau, Bakı, Bişkek, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 8 ofisimizdə 1700-dən çox mütəxəssis çalışır.

© 2023 Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.

Bütün hüquqlar qorunur.

Hazırkı nəşr diqqət ilə hazırlanmışdır, lakin ona daxil edilmiş məlumat zəruri olaraq qısa xülasə şəklində təqdim edilir və buna görə də ümumi xarakter daşıyır və ətraflı araşdırmanın və ya peşəkar rəyin əvəzi kimi nəzərdə tutulmamışdır. "EY" hazırkı nəşrə daxil edilmiş məlumata əsaslanaraq hərəkət etmiş və ya etməmiş hər hansı şəxsə dəyən ziyana görə heç bir məsuliyyəti üzərinə götürmür. Hər hansı xüsusi hal ilə bağlı olaraq istinad müvafiq məsləhətçiyə edilməlidir.

ey.com/az